# "Simurq Liseyi" Təhsil Kompleksi MMC-nin

# Sağlamlıq, Əməyin Mühafizəsi, Texniki-Təhlükəsizlik

# və Ətraf Mühitin Mühafizəsi Siyasəti

## Məqsəd və Əhatə dairəsi

"Simurq Liseyi" Təhsil Kompleksi MMC (bundan sonra "Təhsil Kompleksi") yarandığı gündən işgüzar fəaliyyətində əməyin mühafizəsi və təhlükəsizliyini, işçilərin sağlamlığını, ətraf mühitin mühafizəsini daimi olaraq inkişaf etdirmək üçün üzərinə ciddi öhdəlik götürmüşdür. Təhsil Kompleksi göstərilən xidmətin təhlükəsiz olmasını, işçilərin yalnız fiziki deyil, həmçinin mənəvi cəhətdən də sağlam olmalarını, ətraf mühitə dəyən ziyanların minimuma endirilməsi kimi məsələlərin həllində yardımçı olmağı öz üzərinə götürür. Bu siyasət sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi ilə bağlı yerli qanunvericiliyə, beynəlxalq konvensiyalara və daxili təlimatlara riayət etmək öhdəliyimizi əks etdirir.

## Siyasət bəyannaməsi

Təhsil Kompleksi fəaliyyəti boyu əməyin mühafizəsini daim təkmilləşdirmək, işçilərin sağlamlığı və təhlükəsizliyini təmin etmək və ətraf mühitin qorunmasını təşviq etmək öhdəliyini qəbul edir.

## Prosedurlar

- Bütün yerli qanunvericiliyin tələblərinə, üzvü olduğumuz beynəlxalq konvensiyaların qaydalarına və həmçinin daxili – sağlamlıq, əməyin mühafizəsi və təhlükəsizliyi, ətraf mühitin mühafizəsinə dair mövcud siyasətinə əməl edəcəkdir;
- Şirkətin iş fəaliyyətinin sağlamlıq və təhlükəsizlik qaydalarından üstün tutulmaması məqsədilə veriləcək qərarlara hörmətlə yanaşacaq və həlledici addımlar atacaqdır;
- İşçilərin daim sağlamlıq, əməyin və ətraf mühitin mühafizəsi kimi mövzularda məlumatlı olmaları üçün maarifləndirici addımlar atacaq və dəstəkləyəcəkdir;
- Risklərin idarə olunması, təhlili, kök səbəbin aşkar edilməsi kimi zəruri məsələlərə

ciddi yanaşacaq və həllində aidiyyatı şəxslərə daim dəstək verəcəkdir;

• Sağlamlıq, əməyin mühafizəsi və ətraf mühitin mühafizəsi məsələlərində xüsusiləşmiş idarəetmə sistemləri işləyib hazırlayacaq, həyata keçirəcək və sənəd formasında qoruyub saxlayacaqdır;

• Əsasən, aşağıdakı məsələləri və onların həllini nəzərdə tutan prosedurlar, planlar və siyasətlər işləyib hazırlayacaqdır:

ϖ *Sağlamlıq, əməyin mühafizəsi və ətraf mühitin mühafizəsi mövzularına yönəlmiş və şirkət siyasətinə uyğun plan;*
ϖ *Şikayətlər siyasəti və proseduru;*
ϖ *Qəbul, yerləşdirmə və xaricetmə proseduru;*
ϖ *Kobudluqla, zorbalıqla mübarizə siyasəti;*
ϖ *İşçilərin, xidmətin qiymətləndirilməsi proseduru;*
ϖ *Fövqəladə hallar planı;*
ϖ *Məlumatların mühafizəsi proseduru;*
ϖ *Yanğın təhlükəsizliyi siyasəti və proseduru;*
ϖ *Tibbi siyasət;*
ϖ *Mühafizə və uşaqların müdafiəsi proseduru*

• Baş vermiş hadisələrdə qanunvericiliyə uyğun tədbirlər görəcək, hadisənin əsas səbəblərini araşdıracaq və hər bir baş vermiş hadisədən dərs çıxararaq fəaliyyətini inkişaf etdirəcəkdir.

**Monitorinq**

Öhdəliyimizin effektivliyini təmin etmək üçün Təhsil Kompleksi güclü monitorinq mexanizmlərini həyata keçirməlidir.

**Uyğunluğun Təminatı:**

Sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi ilə bağlı yerli qanunlara, beynəlxalq konvensiyalara və daxili siyasətlərə riayət olunmasını yoxlamaq məqsədilə müntəzəm monitoronqlərin aparılması.

**Hadisələrin İdarə Edilməsi:**
Hadisələr baş verdikdə, Təhsil Kompleksi qanunvericilik prosedurlarına əməl edəcək, kök səbəbləri araşdıracaq və düzəldici tədbirlər həyata keçirəcək. Hər bir hadisədən əldə edilən təcrübələr inkişaf və təkmilləşdirmə prosesinin davamlılığını təmin edəcəkdir.

**Məsuliyyətlər**
Təhsil Kompleksinin idarəetmə orqanları və struktur rəhbərləri, icraedici müavin (katib) vəzifəsini daşıyan şəxslər və ayrı-ayrı tədris binaları üzrə rəhbər səlahiyyətlərini icra edən digər şəxslər bu siyasətin yerinə yetirilməsinə görə ümumi cavabdehlik daşıyırlar. Bütün işçilər bu siyasətin həyata keçirilməsində kollektiv və şəxsi məsuliyyət daşıyırlar.

**“Simurq Liseyi” Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**

AZƏRBAYCAN RESPUBLİKASI «SİMURQ LİSEYİ TƏHSİL KOMPLEKSİ» Məhdud Məsuliyyətli Cəmiyyəti AZERBAIJAN REPUBLIC